UOT-811.11-112
Səhifə: 160-165
https://doi.org/10.59849/2663-8967.2026.2.160

Firəngiz Hadi
AMEA akademik Z.M.Bünyadov adına,
Şərqşünaslıq İnstitutu

KOQNİTİV DİLÇİLİYİN PSİXOLİNQVİSTİKADAKI YERİ: NƏZƏRİ VƏ TERMİNOLOJİ YANAŞMA

XÜLASƏ

Məqalədə dil və nitqin yaranması və mənimsənilməsi prosesi ilə bağlı məsələlərə psixolinqvistik baxımdan diqqət yetirilir, nitq aktını həm linqvistik, həm də psixoloji baxımdan şərh etmənin önəmi göstərilir.

Bu məqalədə psixolinqvistika və ya koqnitiv dilçilik istiqaməti üzrə aparılan araşdırmalar təhlil edilir. Dilin psixoloji problemlərinin öyrənilməsi ilə bağlı göstərilən cəhdlər biheviorizm, neobiheviorizm və nitq fəaliyyəti nəzəriyyəsi ardıcıllığı ilə nəzərdən keçirilir. Koqnitiv dilçiliyin son nəzəriyyələrindən olan linqvo-psixoloji vəhdət nəzəriyyəsini qısa şərhi verilir. Bundan əlavə, məqalədə dilin yalnız ünsiyyət vasitəsi deyil, həm də insan təfəkküründün, idrak proseslərinin və informasiyanın emal mexanizmlərinin əsas komponentlərindən biri olduğu vurğulanır. Nitqin qavranılması, mənanın formalaşması, dil vahidlərinin yaddaşda saxlanılması və istifadəsi kimi proseslərin psixolinqvistik aspektləri təhlil edilir. Müasir koqnitiv yanaşmalarının dil hadisələrinin daha dərindən anlaşılmasına verilən töhfələr qiymətləndirilir və onların nəzəri-praktik əhəmiyyəti əsaslandırılır. Nəticə olaraq bu fikir əsaslandırılır ki, koqnitiv dilçilik psixolinqvistikanın ayrılmaz tərkib hissəsi və onun son mərhələsidir.

Açar sözlər: *dil, nitq, koqnitiv dilçilik, psixolinqvistika, nəzəriyyə.*

Giriş: Sözün, dilin, nitqin necə yaranması, ünsiyyət zamanı dil vasitəsilə fikrin necə ötürülməsi və mənimsənilməsi ilə bağlı olan məsələlər, dilin dərketmə prosesində və eləcə də dərketmə prosesinin dilin yaranmasında hansı rolu oynaması məsələləri daima diqqət mərkəzində olmuşdur. Dil insan psixikası, onun təfəkkür sistemi ilə sıx bağlı olduğuna görə nitqdə təzahür edən hər bir hadisənin az və ya çox dərəcədə psixoloji baxımdan izahı olmalıdır. Nitq aktına psixolinqvistik baxımdan dəyər vermənin də xüsusi önəmi vardır.

Nitqin həm yaranması, həm də başa düşülməsi problemlərini tam elmi şəkildə şərh etməyə çalışan dilçilik sahəsi psixolinqvistika hesab olunur. Onun ilkin məqsədi və hətta yaranma səbəbi nitqin əmələgəlmə və mənimsənilmə mexanizmini öyrənmək olmuşdur. Bu istiqamət çərçivəsində həm ayrı-ayrı sözlərin, cümlələrin, həm də ümumilikdə nitqin yaranma və mənimsənilmə mexanizmini öyrənməyə çoxsaylı cəhdlər göstərilmişdir. Nəticə olaraq "Biheviorizm", "Neobiheviorizm" və sonuncunun müasir qolları olan "Konneksionist psixolinqvistika", "Koqnitiv psixolinqvistika", eləcə də "Nitq fəaliyyəti nəzəriyyəsi" kimi yeni konsepsiya və nəzəriyyələr işlənib hazırlanmışdır.

Neobiheviorizmin iki əsas qolundan biri olan koqnitiv psixolinqvistika və ya bu günlərdə çox böyük populyarlıq qazanmış adı ilə desək, koqnitiv dilçilik həm insanın dünyanı dərk edərkən dildən necə faydalandığını, həm də dərk edilən gerçəklik vahidlərinin dil sistemində necə əks olunduğunu eyni anda araşdıran müasir elm sahələrindən biridir. Son dövrlərdə koqnitiv dilçiliklə bağlı tədqiqatlar, o cümlədən də diskursun özünün və onun ən vacib elementlərindən olan konseptin və freymin tədqiqinə həsr edilən araşdırmalar sürətlə artır.

Koqnitiv dilçilik və ya psixolinqvistika qavrama, düşünmə və gerçəkliyin dərki zamanı baş verən mental prosesləri, habelə onların mental reprezentasiyalarının növ və formalarını tədqiq edir. Məlum olduğu kimi, koqnitiv psixologiyanın məqsədi dünyanın qavranılması, kateqoriyalaşması, klassifikasiyası və dərki proseslərinin necə həyata keçdiyini, biliklərin toplanmasının necə baş verdiyini anlamaq və araşdırmaqdır. Koqnitiv dilçilik koqnitiv psixologiyanın linqvistika və ya dilçilik elmi ilə birləşməsindən yaranmışdır. Elə bu səbəbdəndir ki, bu günlərdə dil nəzəriyyəsi üzrə tədqiqat aparan mütəxəssislərin əksər qismi məhz neobiheviorizmin bu qoluna, yəni koqnitiv psixolinqvistikaya və ya koqnitiv dilçiliyə əsaslanır.

Koqnitiv dilçilik bazasında tədqiqat aparan mütəxəssislərin diqqəti idrakın şərti kimi dilin rolunun aydınlaşdırılmasına yönəlir. Çünki məhz dil insan şüuru haqqında tam və adekvat təsəvvür yaratmağa imkan verir. E.S.Kubryakova koqnitiv dilçilik baxımından yanaşmaqla dili informasiyanın kodlaşdırılması və transformasiyasında mühüm rol oynayan koqnitiv alət və ya mexanizm kimi nəzərdən keçirir [5, s. 53-54].

Koqnitiv dilçilik istiqaməti üzrə tədqiqat aparan mütəxəssislər, bir qayda olaraq, qavrama, düşünmə və gerçəkliyin dərk olunması zamanı baş verən mental prosesləri, habelə onların reprezentasiyalarının növ və formalarını nəzərdən keçirirlər.

Psixolinqvistikanın inkişafının koqnitiv dövrü dilin digər fundamental koqnitiv proseslər arasında yerinin müəyyən edilməsi cəhdləri ilə başlandı. Koqnitiv dilçilik nitqin yaranması, qavranılması və mənimsənilməsi ilə bağlı psixoloji prosesləri, ən əsası isə dil və təfəkkürün qarşılıqlı əlaqəsini kompleks şəkildə tədqiq edir. Dilin və onun struktur vahidlərinin, eləcə də nitqin yaranması birbaşa olaraq psixoloji proses və mexanizmlərə söykənir. İstənilən linqvistik fəaliyyətin və ya təcrübənin əsasında qavrayış, idrak və yaddaş dayanır. Elə bu səbəbdən də linqvo-psixoloji prosesləri nəzərə almadan dilin və nitqin hərtərəfli tədqiqi və təhlili mümkün deyil.

Dil bəşəriyyətin təkamülünün ayrılmaz tərkib hissəsidir. Onun formalaşması, funksiyaları və mahiyyətinin öyrənilməsi məsələləri qədim köklərə malikdir. Məlumdur ki, dil insanın informasiya mübadiləsi ehtiyacından yaranmışdır. Dövr və cəmiyyət inkişaf etdikcə, dilin yaranmasına, formalaşmasına və onun insan həyatındakı roluna olan münasibət də tədricən dəyişməyə başladı. Ümumiyyətlə, dilin, nitqin yaranması və kommunikasiya prosesində onlardan istifadə, eləcə də nitqin ötürülməsi, qəbulu və mənimsənilməsi həmişə diqqət mərkəzində olmuşdur. Dil psixoloji, kommunikativ və mədəni amillər arasındakı qarşılıqlı əlaqəni əks etdirir. Dil insan təfəkküründün məhsulu kimi beyin aktivliyinin reallaşma mexanizmini və irəliləyiş tərzini əks etdirir.

İ.A.Boduen de Kurtene məktəbi və onun ardıcılları dilin tədqiqi zamanı insan faktorunu yüksək qiymətləndirmişlər. Müasir dilçilikdə də əsas diqqət insan amilinə verilir. Hətta belə də deyə bilərik ki, bu günlərdə əksər elm sahələrinə aid tədqiqatlarda antroposentrik cəhətə xüsusi önəm verilir. Elm və texnikanın sürətli inkişafı, kompüter texnologiyalarının yaranması, ünsiyyət vasitəsi olaraq dildən kodlar kimi ifadə olunması bir zəruriyyətə çevrilir. Xüsusilə süni intellektin yaradılması prosesində buna daha böyük ehtiyac duyulur. Belə bir mövqe dilə tamamilə yeni yanaşmalar tələb edir. Bunun nəticəsi olaraq yeni linqvistik sahələr formalaşır. Yaranan sahələrin, istiqamət və yanaşmaların əsas məqsədi klassik baxımdan dilin yaranma, formalaşma və fəaliyyət mexanizmini yeni müstəvidə analiz və şərh etməkdir.

İnsanların fərdi psixikası və düşüncə tərzi əsasında cəmiyyətin ümumi psixoloji modeli formalaşır. Müşahidələr göstərir ki, nitqdə bu və ya digər bir komponentin xüsusi olaraq vurğulanması və ya buraxılması, yaxud da təkrarlara müraciət olunması, bir qayda olaraq, danışan şəxsin ilkin qayəsi, psixoloji vəziyyəti və ya subyektiv mövqeyi ilə bağlı olur.

İstənilən bir söyləmin və ya cümlənin modallıq və intonasiyaya görə növü də məhz şəxsi qayə nəticəsində yaranır və özünəməxsus intonasiya ilə fərqləndirilərək danışanın emosional və iradi vəziyyətindən asılı olur, insanın hiss və duyğularının canlı ifadəsi kimi çıxış edir. Bəzi hallarda qeyd edilən cəhətlər nitqin emosionallığına, dinamikliyinə, ekspressivliyinə də xidmət edir.

Nitqin yaranması və mənimsənilməsi ilə bağlı bu günlərdə yaranan yeni konsepsiya və nəzəriyyələr haqqında müxtəlif fikirlər deyilir. Həmin konsepsiya və nəzəriyyələrin müəllifləri bu fikirdədirlər ki, irəli sürdükləri mülahizələr əsasında nitqin yaranma və mənimsənilmə mexanizmini tam şəkildə şərh etmək mümkündür.

R.V.Pazuxin yazır: ”Dilin işlənmə səbəbini, onun strukturunu, eləcə də söyləmin tərkibində olan hər bir dil elementinin mahiyyətini aydınlaşdırmağa qadir olan yeganə funksiyası onun kommunikativliyidir” [7, s.90-110]. Q.V.Kolşanskinin fikrincə “Dil – təfəkkürün gerçəkləşməsidir və eyni zamanda ictimai hadisədir” [4, s.44]. R.A.Budaqov isə, belə hesab edir ki, “Kommunikativlik və fikri ifadə funksiyalarının vəhdəti olmadan nə dil, nə də dil haqqında elm ola bilməz” [3, s.3]. Göstərilən fikirlərə əlavə olaraq Mayıl Əsgərov qeyd edir ki, “Dil - ünsiyyət zamanı okkazional şəkildə yaranan dil struktur vahidlərinin və söyləmlərin əks etdirdiyi gerçəklik elementinin yaddaşdakı intellekt obrazları ilə birləşməsidir [1, s.276]. Onun fikrincə, dili ümumi sistem kimi qəbul edə bilmək üçün qaynaq mahiyyəti daşıyan bütün dil struktur vahidlərini, ikincisi, onları ətraf aləmə yönəldən mexanizm kimi çıxış edən nitqyaratma funksiyasını, bu yolda fəaliyyət axınının cərəyan etdiyi xətləri əmələ gətirən qrammatik formalardan ibarət paradiqmalar silsiləsini və son olaraq beyin aktivliyini kompleks şəkildə nəzərə almaq lazımdır. Beyin aktivliyi, yəni fikir və mülahizələr dəyişdikcə onu əks etdirən nitq və nitqin qurulmasını təmin edən dil sistemi daxilində müəyyən dəyişikliklər baş verir. Bu deyilənlərdən hətta belə bir nəticəyə də gəlmək mümkündür ki, dil daim dəyişən, inkişaf edən və hərəkətdə olan aktiv sistemdir. O, insanın koqnitiv fəaliyyətinin tərkib hissəsidir. Mahiyyət etibarilə nitq fəaliyyəti, onun təmin edən dil və insan təfəkkürü ayrılmaz şəkildə bir-biri ilə bağlıdır.

Aydındır ki, psixologiya və linqvistikaya aid olan klassik nəzəriyyələr nitq və dərketmə, dil və təfəkkür arasındakı qarşılıqlı əlaqələri sistemli şəkildə izah etməyə kifayət deyil. Məhz bu səbəbdən, son dövrlərdə dilin psixoloji məsələləri ilə bağlı tədqiqatlar artmış və bu istiqamətdə aparılan bütün tədqiqatlar bir ənənə şəklində psixolinqvistik tədqiqat adını almışdır.

Mayıl Əsgərovun qeyd etdiyi kimi, psixolinqvistikanın aparıcı istiqaməti kimi formalaşan biheviorizmin əsas metodologiyası psixoloji metodologiyadır və onun tətbiqi ilə nəzərdən keçirilib həll olunan bütün problemlər sırf psixoloji mahiyyət daşıyır.

Yaradıcısı Ç.Osqud və N.Xomskinin olduğu qəbul edilən və ikinci psixolinqvistik istiqamət hesab edilən neobiheviorizmin istinad etdiyi psixoloji əsaslar Ç.Morrisin irəli sürdüyü “stimul-dispozisya-reaksiya” sxemidir. Bu nəzəriyyənin linqvistik əsaslarının N.Xomski tərəfindən irəli sürülən “transformativ qrammatika” nəzəriyyəsi olduğunu deyə bilərik [10, s.122].

V.Humboldtun əsərlərini bu psixolinqvistik tədqiqatların ilham mənbəyi hesab etmək mümkündür. Onun tədqiqatları dilçilikdə başqa istiqamətlərlə yanaşı psixoloji istiqamətin də inkişafına təkan vermişdir. V.Humboltd dili yaradıcı proses kimi, fəaliyyətin məhsulu yox, fəaliyyətin özü hesab edir [1, s.31]. Onun bu konsepsiyası daha sonra A.N.Leontyev və A.R.Luriya tərəfindən təkmilləşdirilən psixolinqvistik məsələlərə linqvistik yox, sırf psixoloji mövqedən yanaşan “Nitq fəaliyyəti nəzəriyyəsi”nin başlanğıcını qoymuşdur [6, s. 97].

Konneksianist psixolinqvistikanın psixoloji əsası, təbii ki, konneksianist psixologiya, linqvistik əsasları isə N.Xomskinin törədici qrammatika nəzəriyyəsi hesab edilir. Konneksianist psixologiyanın mahiyyəti bundan ibarətdir: kənardan alınmış istənilən informasiya reseptorlarla axaraq insan yaddaşını əmələ gətirən beyin hüceyrələri modullarından keçir və onların hər birində öz izini qoyur, ya da həmin hüceyrələrdə qeyd olunur.

İstənilən psixoloji aktivliyin, eləcə də nitqyaratma prosesinin koqnitiv köklərinin olması fikri N.Xomskinin adı ilə bağlıdır. Psixolinqvistlər N.Xomskinin transformasion-generativ qrammatikasında irəli sürülən “linqvistik nəzəriyyənin əsasında nitq fəaliyyəti deyil, dil kompetensiyası durmalıdır” müddəasına əsaslanaraq nitqin başa düşülməsi məsələsinə istiqamətləndilər. Koqnitiv nəzəriyyənin elmin müasir səviyyəsinə uyğun yenidən hazırlanması başqa sözlə desək, koqnitiv psixologiyanın yeni versiyasının müəllifləri Jan Piaje və Robert Solso hesab olunur.

Jan Piajenin psixologiyaya gətirdiyi elmi yenilik ondan ibarətdir ki, uşaqların şüur və təfəkkür imkanları yaş qruplarına uyğun şəkildə mərhələlərlə inkişaf edir. J.Piajenin ən

fundamental elmi tədqiqatları 0-15 yaşlı uşaqlar üzərində aparılan eksperimentlərin nəticələrinə əsaslanır və intellektin inkişaf mərhələlərindən bəhs edir [8, s.55-231]. Robert Solso isə yaddaşın müvəqqəti və daimi, dəyişən və stabil, toplayıcı və ümumiləşdirici, primitiv və təkmilləşmiş və s. kimi müxtəlif proposiziyalar şəklində nəzərdən keçirilməsindən bəhs edir [9, s.39].

Mənimsəmə ilə başlayıb, təsəvvürün formalaşması ilə nəticələnən dərketmə prosesinin şərhini verən V.Humboldtun "dil dərketmə və ya təfəkkürdən asılı deyil" fikri psixolinqvistikada yeni müzakirələrə səbəb olmuşdur. Mayıl Əsgərov V.Humboldtun bu fikrinin tam əksinə belə hesab edir ki, "insan təfəkküründən kənarda mənasız söz yığını və işarələr zəncirindən başqa bir şey olmayan dilin və ya nitqin əsl mahiyyəti məhz dərketmə və təfəkkür proseslərində üzə çıxır" [1, s.34]. V.Humboldtun bu fikrinə öz yanaşmamızı bildirmək istərdik ki, insanın yüksək psixoloji fəaliyyətlər qrupuna daxil olan nitqyaratma və kommunikasiyanı dərketmədən kənarda təsəvvür etmək belə mümkün deyil.

Yuxarıda haqqında bəhs edilən nəzəriyyələrin müsbət cəhətlərindən faydalanmaq və onların çatışmazlıqlarını aradan qaldırmaq yolu ilə Mayıl Əsgərov tərəfindən koqnitiv dilçiliyin son nəzəriyyələrindən biri olan linqvo-psixoloji vəhdət nəzəriyyəsi işlənib hazırlanmışdır. Bu nəzəriyyəyə görə dil və nitq həm yaranması, həm də funksiyaları baxımından linqvo-psixoloji mahiyyət daşıyır.

Linqvo-psixoloji vəhdət nəzəriyyəsinin psixoloji əsasını "S+K+F=D yəni, stimul + kod + fəaliyyət = dərketmə" sxemi təşkil edir [2, s.170]. Linqvistik əsasını isə eyni zamanda əks etdirmək və əks olunmaq qabiliyyətinə malik olan dil sistemi və ya dil struktur vahidləri təşkil edir.

Verilən sxemdəki kod anlayışına linqvo-psixoloji vəhdət nəzəriyyəsi daxilin iki fərqli şəkildə rast gəlinir: natamam kod və tam kod.

Natamam kod, yəni $Ge_1 + İO_1 = K_{nt}$ kodu sırf psixoloji mahiyyət daşıyır. Belə ki, bu kod gerçəklik vahidinin ən üzdə olan xüsusiyyətindən və ya birinci sıra gerçəklik elementindən (Ge_1) və onun yadda qalmasını təmin edən birinci sıra intellekt obrazından ($İO_1$) ibarətdir.

Tam kod, yəni $Ge_1 + İO_1 + Ge_2 + İO_2 = K_t$ kodu isə eyni anda həm psixoloji, həm də linqvistik mahiyyət daşıyır. Yəni bu kod birinci sıra gerçəklik elementindən (Ge_1) və onun yadda qalmasını təmin edən birinci sıra intellekt obrazından ($İO_1$), eyni zamanda həmin gerçəklik vahidinin adı mahiyyəti daşıyan ikinci sıra gerçəklik elementindən (Ge_2) və bu adın yadda qalmasını təmin edən ikinci sıra intellekt obrazından ($İO_2$) ibarətdir. Göründüyü kimi tam kod həm psixoloji, həm də linqvistik elementlərin üzvi şəkildə birləşməsindən və ya onların vəhdətindən əmələ gəlmişdir. "Linqvo-psixoloji vəhdət nəzəriyyəsi"nin adında işlənən vəhdət sözünün mənası da elə budur.

İnsanı digər canlılardan fərqləndirən əsas cəhət odur ki, insan sadəcə təbiətdə hazır şəkildə mövcud olan gerçəklik vahidlərini dərk etmir, yeni gerçəklik vahidləri yaratmağa və onları da dərk etməyə qadirdir. Düşünmə yolu ilə yeni gerçəklik vahidinin və elementinin yaradılması, əqli yaradıcılıq prosesi hesab olunan bu cür dərketmə sinktual dərketmə adlanır. İnsan sinktual dərketmə yolu ilə dərk etmiş olduğu gerçəklik vahidinə ad verir. Bu proses sözün və ya formanın yaranması adlanır. Göründüyü kimi, söz dərketmə və təfəkkürün vasitəsi yox son məhsuludur.

İnformasiya mübadiləsi nitq və ya söyləm vasitəsilə qurulur. Nitq və ya söyləm dərketmə aktının dördüncü fazasında ardıcıl şəkildə cərəyan edən dörd pillə nəticəsində yaranır.

Birinci pillədə aktiv yaddaşa gətirilmiş intellekt kodları və kod silsilələri söylənəcək nitqin ümumi planına və məntiqinə uyğun şəkildə sıralanır.

İkinci pillədə nitqin aktiv yaddaşda olan ümumi sxeminin əvvəlində yer alan gerçəklik elementinə aid intellekt kod və silsilələri daha detallı şəkildə açılır və bununla da söylənəcək əsas fikir formalaşmış olur.

Üçüncü pillədə formalaşmış əsas fikrə ekvivalent olan birinci intellekt obrazları nitq vahidi mahiyyəti daşıyan söyləmlərə parçalanır. Başqa sözlə desək, birinci intellekt obrazları söyləmlər şəklində xırda qruplarda birləşir, birinci intellekt obrazları ikinci intellekt obrazlarına və onlar da öz növbəsində sözlərə transformasiya olunur. Bu pillənin sonunda söylənəcək ilk söyləm leksik səviyyədə hazır olur.

Dördüncü pillədə aktiv yaddaşda leksik səviyyədə hazır olan söyləmin fonetik, qrammatik, sintaktik baxımdan bütün boşluqları doldurulur və ünsiyyətə xidmət edən kommunikativ nitqin ilk söyləmi səsləndirilmək üçün tam hazır olur [2, s.123].

İnsan sinktual dərketmə nəticəsində yeni gerçəklik elementi yaratdığı kimi intellektual nitq də yarada bilir. İntellektual nitq ümumi dərketmənin ikinci aktında reallaşan sinktual dərketmənin birinci və ikinci fazalarında yaranır və əsas yaddaşa qeyd olunur, yəni dərk edilir. İnsan gündəlik ünsiyyətdə həm kommunikativ həm də intellektual nitq növlərindən qarışıq şəkildə istifadə edir. Qarışıq şəkildə istifadə olunan belə nitqə bu tədqiqat çərçivəsində kombinal nitq deyilir [2, s.150].

Dil və dərketmə qarşı-qarşıya qoyulmuş güzgülərə bənzər iki eyni tipli sistemdir. Dərketmə sistemindən kənarda olan dil ölü dil və ya bilinməyən dildir. Dil özünün aktiv sistem mahiyyətini məhz dərketmə sistemi və təfəkkür prosesləri ilə yenidən birləşdikdə qazanır.

Məqalədə nəzərdən keçirdiyimiz "Biheviorizm", "Neobiheviorizm" və "Nitq fəaliyyəti nəzəriyyəsi" kimi nəzəriyyələr və Neobiheviorizm müasir səviyyəsi olan koqnitiv dilçilik sözün əsl mahiyyəti ilə yanaşsaq psixolinqvistikadır. Bu fikrimizi də əlavə edə bilərik ki, son zamanlarda böyük populyarlıq qazanmış və müstəqil istiqamət kimi tanınan koqnitiv dilçilik psixoloinqvistikanın ayrılmaz tərkib hissəsidir.

Nəticə: Yuxarıda qeyd etdiklərimizdən belə bir nəticəyə gəlirik ki, psixolinqvistika nitqin yaranması və başa düşülməsi problemlərini tam elmi şəkildə şərh etməyə çalışan dilçilik sahəsidir. Ayrı-ayrı sözlərin, cümlələrin, eləcə də ümumilikdə nitqin yaranma və mənimsənilmə mexanizmini öyrənməyə göstərilən cəhdlər nəticəsində "Biheviorizm", "Neobiheviorizm" və "Nitq fəaliyyəti nəzəriyyəsi" kimi nəzəriyyələr hazırlanmışdır.

Koqnitiv dilçilik koqnitiv psixologiyanın linqvistika ilə birləşməsindən yaranmışdır. Məhz buna görə də bu günlərdə dil nəzəriyyəsi üzrə tədqiqat aparan mütəxəssislərin əksər qismi koqnitiv psixolinqvistikaya əsaslanır.

Dilin istənilən psixoloji probleminin həllində koqnitiv mövqedən yanaşmaq onu göstərir ki, koqnitiv dilçilik psixoloji dilçiliyin növlərindən biridir. Koqnitiv dilçiliyin ən son uğurlarından biri və psixolinqvistikanın aktual problemləri ilə bağlı yeni nəzəriyyə hesab olunan linqvo-psixoloji vəhdət nəzəriyyəsi həm sözün, həm nitqin yaranması və mənimsənilməsini, həm də dilin sistem mahiyyətini izah etmə imkanı verir.

Ədəbiyyat siyahısı

1. Əsgərov M.B. Linqvopsixologiya və ya dilin psixologiyası. Bakı, "Elm və təhsil", 2011, 308 s.
2. Əsgərov M.B. Linqvo-psixoloji vəhdət nəzəriyyəsi. Bakı, "Elm və təhsil", 2015, 192 s.
3. Будагов Р.А. Введение в науку о языке. М. 1958,стр.434
4. Колшанский Г.В. Соотношения субъективных и объективных факторов в языке. М. 1975, с.232
5. Кубрякова Е.С. и др. Краткий словарь когнитивных терминов. М.: филол.ф-т МГУ им. М. В. Ломоносова, 1997, стр.245
6. Леонтьев А.А. Психолингвистика. Москва, "Наука", 1967, с. 118.
7. Пазухин Р.В. Учение К.Бюлера о функциях языка как попытка психологического р ешения лингвистических проблем .-"Вопросы языкознания", 1963, стр.154
8. Пиаже Ж. Избранные психологические труды. М., «Просвещение», 1969, 659 с.
9. Солсо Р. Когнитивная психология. 6-е изд, СПб, Питер 2011, 589 с.
10. Хомский Н. Язык и мышления. Москва, "МГУ", 1972, 252 с.

Фирангиз Гади

Место когнитивной лингвистики в психолингвистике: теоретический и терминологический подход

Резюме

В статье рассматриваются вопросы, связанные с процессом формирования и овладения языком и речью с психолингвистической точки зрения, и подчеркивается важность интерпретации акта речи как с лингвистической, так и с психологической точки зрения.

В статье обсуждаются исследования в области психолингвистики или когнитивной лингвистики. Попытки изучения психологических проблем языка рассматриваются в контексте теории бихевиоризма, необихевиоризма и речевой деятельности. Дается краткое описание одной из последних теорий когнитивной лингвистики-теории лингвопсихологического единства. В результате утверждается, что когнитивная лингвистика является неотъемлемой частью психолингвистики и ее заключительным этапом.

Ключевые слова: *язык, речь, когнитивная лингвистика, психолингвистика, теория*

Firangiz Hadi

The place of cognitive linguistics in psycholinguistics: a theoretical and terminological approach

Summary

The article focuses on issues related to the process of language formation and mastery of speech from a linguistic and psychological point of view and emphasizes the importance of valuing the act of speech from a psycholinguistic point of view.

This article discusses research in the field of psycholinguistics or cognitive linguistics. Attempts to study the psychological problems of language are considered in the context of the theory of behaviorism, neobehaviorism and speech activity. A brief description of one of the latest theories of cognitive linguistics-theory of linguistic-psychological unity is given. As a result, it is argued that cognitive linguistics is an integral part of psycholinguistics and its final stage.

Key words: *language, speech, cognitive linguistics, psycholinguistics, theory*

Çapa tövsiyə edən: ***AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu***

Rəyçilər: ***fil.e.d.,dosent G.Hüseynova***
dosent Z.Musəvi